# Qız qalası

**Qız qalaları Azərbaycan ərazisində ən geniş yayılmış tarixi tikililərdəndir. Gədəbəydən başqa Bakı, Şəki, Şamaxı, Qəbələ, Qazax, Yardımlı, İsmayıllı, Naxçıvan Muxtar Respublikası və Qarabağ bölgəsində də bu cür qalalar mövcuddur.**

Qız qalaları həmçinin Orta Asiyada, Qara dəniz sahillərində, İranda, İraqda, Hindistanda, Avropanın bir sıra ölkələrində də geniş yayılmışdır (3, s.184).

Xalq arasında həmin qalalar haqqında məzmunca bir-birinə bənzəyən və ya tamamilə fərqlənən çoxsaylı əfsanələr var. Onların bir qismində bu qalaların hansısa hökmdarın qızının şərəfinə tikildiyindən, başqa bir qismində isə sevgi macəraları ilə bu və ya digər dərəcədə bağlılığından söhbət açılır. Lakin açığını deyək ki, Qız qalalarının adına çıxan əfsanələrin xeyli qisminin, əslində bu qalalarla heç bir əlaqəsi yoxdur. Sağlam təfəkkürün məhsulu olmayan belə uydurma "əfsanələr" tariximizə də, mənəviyyatımıza da yabançıdır və onları xəlbirdən keçirmək vaxtı artıq gəlib çatmışdır. (1, s. 87-93).

Tədqiqatçılardan bir qrupu belə hesab edir ki, bu qalaların altındakı "qız" sözü "oğuz" sözünün tədricən təkamülə uğramış formasıdır. Əlbəttə, bu inandırıcı fikir hesab oluna bilməz. Çünki kifayət qədər geniş ərazidə yayılan, dünyanın bir çox region və ölkələrində mövcud olan Qız qalalarının hamısının bir tayfa - oğuz tayfası tərəfindən tikildiyini söyləmək, ən azı məntiqsizlik olardı (2. s.185)

Qız qalalarının "göz qalası", "gözətçi qalası" olduğunu söyləyənlər də vardır. Bu fikirlə də razılaşmaq olmaz. Birincisi, ona görə ki, Qız qalalarının bir çoxunun yerləşdiyi strateji şərait bunu inkar edir. Məs:Qız qalası yaxınlığındakı orta əsr yaşayış yerlərindən nisbətən arxa planda, dağlar, meşəliklər içərisində yerləşir və bu səbəbdən də onlar gözətçi məntəqəsi funksiyası daşıya bilməzdi. İkincisi, bu qalalar öz quruluşu və əzəməti ilə də diqqəti cəlb edirlər ki, bu cəhət də gözətçi məntəqələri üçün əsla səciyyəvi xüsusiyyət hesab edilə bilməz.

Qız qalalarını "köz qalası" adlandıranlar, onları atəşpərəstliklə bağlayanlar da vardır. Nəhayət, bir qrup araşdırıcılar Qız qalalarındakı "qız" sözünü Şərqdə müqəddəs hesab edilən su ilahəsi Anahitlə əlaqələndirirlər. Bu fikir tərəfdarları ilk növbədə belə bir cəhəti unudurlar ki, Qız qalalarının demək olar ki, əksəriyyəti müqəddəs su ilahəsi olan Anahitlə bağlı təsəvvür və miflərin təşəkkül tapıb geniş yayıldığı tarixi dövrdən çox-çox sonralar tikilib. Başqa sözlə, bu qalaların bir çoxu zərdüştlüyün, oradakı su ilahəsi Anahit və od ilahəsi Mitra ilə bağlı təsəvvürlərin artıq şüurlara hakim kəsilmədiyi bir dövrün - sırf özünəməxsus siyasi-iqtisadi və mənəvi zəmini olan yeni bir dövrün məhsuludur (2, s. 185-186).

Bəs Qız qalalarının təyinatı və onların nə üçün məhz "Qız qalası" adlandırılması barədə nə demək olar. Bizcə, Qız qalalarının istisnasız olaraq hamısı müdafiə qalasıdır. Onların quruluşu və strateji mövqeyi yalnız bu cür düşünməyə əsas verir. Həm də bu qalalar başlıca olaraq feodal basqınları və müharibələri zamanı, əsasən, qızların müdafiəsi üçün nəzərdə tutulmuşdur. Fikrimizcə, vətənin, doğma diyar və şəhərin çətin məqamlarında, dava-dalaşlı günlərində kişilər döyüş meydanlarında ölüm-dirim mübarizəsi aparanda qadın və qızlar Qız qalalarında mühafizə olunmuşlar (2,s. 185).

Müharibə və döyüşlər zamanı adətən, tərəflərdən birinin qadınını, qızını və ya məmləkətin gözəllərini ələ keçirməsi olduqca təhqiramiz hal hesab olunurdu. Bu məqsədlə hərbi qüvvə işlətməkdən əlavə, həm də müxtəlif hiylə və fırıldaqlara da əl atılırdı.

Odur ki, qarşıdakı müharibə və toqquşmalarda təhqiramiz vəziyyətə düşməmək üçün ayrı-ayrı şəhər və vilayətlərdə etibarlı qalalar tikilməsi nəinki mümkün idi, həm də zəruri idi. Bizcə, Qız qalaları məhz bu mənada alınmazlıq, əlçatmazlıq simvolu hesab edilə bilər.

Onların adındıkı "qız" sözünü isə məhz bu mənada namus, qeyrət, bakirəlik rəmzi kimi başa düşmək lazımdır. Yəni, bu qalalarda sözün həqiqi mənasında bir elin, bir obanın qeyrəti, namusu, bakirəliyi mühafizə olunurdu.

**Afət ALLAHVERDİYEVA,**
**rayon tarix-diyarşünaslıq muzeyinin direktoru**

**Ədəbiyyat**

1. Cəbiyev Q.C. Arxeologiya və romantika. Bakı: Gənclik nəşriyyatı, 1985.
2. Cəbiyev Q.C. Bura vətəndir. Bakı: Nafta-Press, 2003.
3. C.Hüseyn. Qız qalalarının yayılma ərazisi və "Qız qalası" sözünün tarixi kökü haqqında AMM IX cild. Bakı: Elm, 1980.

**Redaksiyadan:**

*Jurnalımızın 2009-cu il 4-cü sayında anlaşılmazlığa yol verilmiş və tarix elmləri namizədi Məhəbbət Paşayevaya məxsus "Gədəbəy toponimikasında qədim türk mənşəli tayfaların izləri" sərlövhəli məqalə (səh. 58-59) Afət Allahverdiyevanın imzası ilə dərc olunmuşdur.*

# Yubiley tədbiri

**"Beyləqan rayonu zəhmətkeş rayondur. Buradakı adamlar öz halal zəhmətilə yaşayan əməksevər insanlardır".**

**Heydər Əliyev**

**Beyləqanın yaranmasının 70 illiyi ilə əlaqədar olaraq bölgədə müxtəlif tədbirlər, rəngarəng idman yarışları, gecələr, müsabiqələr keçirilir.**

**Mərkəzləşdirilmiş Kitabxana Sistemində təşkil olunan tədbir bu mənada diqqət çəkir. Tədbiri kitabxananın direktoru Gültəkin Məmmədova açaraq qonaqları və iştirakçıları salamladı. 2 saylı orta məktəbin müəllimi Nadir Abdullayev Beyləqanın qədim tarixindən geniş söhbət açdı.**

**MKS-nın direktor müavini Sədaqət Qarayeva Beyləqanın tarixi şəxsiyyətlərindən və bugünkü görkəmli simalarından, əməksevər insanlarından danışdı.**

**S.Qazıyeva adına "Gənclər" kitabxanasının müdiri Zabitə Qafarova Beyləqanda yaşayıb, yazıb-yaratmış görkəmli şəxsiyyətlərdən olan Mücrəddin Beyləqaninin (1130-1191) şeir və qəzəllərindən söylədi.**

**"Mil" və "Quruluş" qəzetlərinin baş redaktoru, "Sözlü, sehirli dünya" ədəbi birliyinin rəhbəri Elman İsrafiloğlu rayonda gedən quruculuq işlərindən danışdı və öz xoş təəssüratını Beyləqana həsr etdiyi şeirlə ifadə etdi. Sonda bölgənin keçmişi və bu gününü əks etdirən "Beyləqanım - Oğuz yurdum" adlı sərgiyə baxıldı.**

**Lalə HACIYEVA,**
*zona müxbirimiz*